Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# İsa On İki Şagird Seçir



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus

Uyğunlaşdıran: E. Frischbutter; Sarah S.

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

İsa gözəl şeylər edirdi. O, xəstələrə şəfa verirdi, təlaşda olanların ürəyinə və düşüncələrinə sülh verirdi və Allahın Sözünü öyrədirdi.



İzdiham kömək və şəfa üçün
İsanın yanına gəlirdi.



O, Allaha xidmətində Ona kömək etmək üçün Öz ardıcılları arasından on iki nəfər seçməyi qərara aldı.



Sən mühüm seçimlər etmək qarşısında duranda, Allaha dua edirsənmi?  İsa edirdi! Sakit dağlıq yerdə O, Öz Səmavi Atası ilə danışırdı.  İsa gün batana qədər dua edirdi.





İsa qaranlıq gecə boyu dua edirdi.



Səhər tezdən İsa şagirdlərini - xidmət və
itaət edən bütün dostlarını çağırdı. Onlar
arasında xüsusi yardımçı
yaxud həvari
olmaq
üçün on ikisini seçdi.

İsanın seçdiyi ilk iki şagird Şimon Peter və Andrey qardaşları idi. İsa ilk dəfə onları Öz ardınca getməyə çağıranda onlar öz balıqçılıq işlərini atdılar.



Zavdayın oğulları
Yaqub və Yəhya da
balıq torlarını tərk etdilər.



İsa həmçinin Filipi, Bartalmayı, Mattanı, Toması, Kənançı Şimonu, Halfay oğlu Yaqubu, Yaqubun qardaşı Yəhudanı və sonra İsanın düşməni olan Yəhuda İskaryotu seçdi.




İsa öyrədirdi ki, Onun dediklərinə
əməl etmək öz evini
möhkəm təməl
üzərində tikmək
kimidir.  Güclü
fırtınalar onu
dağıda bilməyəcək.

Ancaq İsanın Sözlərinə itaət etməmək öz evini qum üzərində tikməyə bənzəyir. Fırtına olanda o ev dağılacaq.



İsanın bəzi əmrləri asan deyildi.  O öyrədirdi: “Əgər biri sağ yanağına şillə vurarsa, sol yanağını da çevir”.



“Düşmənlərinizi sevin”. İnsanların İsa kimi yaşaması üçün Allahın köməyinə ehtiyacları var.



İsa dedi ki, Allah
Ona etibar edən
adamları yedizdirəcək
və geyindirəcək.



Əgər Allah quşlara yemək verirsə, güllərə və kollara gözəl rənglər verirsə, Onun xalqı bütün ehtiyacları üçün Ona etibar edə bilər.



İsa yeni seçdiyi köməkçilərinə həmin gün çoxlu yeni şeylər öyrətdi. O, təlimini bitirəndən sonra bir cüzamlı İsadan ona şəfa verməsini xahiş etməyə gəldi.



İsa cüzamlıya cavab verdi: “İstəyirəm. Təmiz ol”. Digər köməkçilər bunu izləyərkən, cüzamlı təmizləndi. O, şəfa aldı! Yalnız Allahın Oğlu bunu edə bilərdi. Köməkçilər bilirdilər ki, onların gözəl Müəllimi var.



# İsa On İki Şagird Seçir

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Matta 4-7, Mark 1, Luka 6

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**